# Azərbaycanın təhsil sahəsində qısa zamanda əldə etdiyi nailiyyətlər qürurvericidir

Azərbaycanın təhsil naziri Mikayıl Cabbarov Dünya Təhsil Forumunda iştirak etmək üçün Londonda səfərdədir. Səfər çərçivəsində nazir ölkəmizin Böyük Britaniyadakı səfirliyində dövlət proqramı ilə təhsil alan azərbaycanlı tələbələrlə görüşüb.

Nazir tələbələrə beynəlxalq Dünya Təhsil Forumu haqqında məlumat verib. Qeyd edilib ki, bu cür tədbirlər bizim təhsil sisteminə də töhfə vermək, eləcə də əldə edilən nailiyyətlərin dünya təhsil ictimaiyyətinə çatdırmaq baxımından əhəmiyyətlidir. Milli dəyərlərimiz ilə yanaşı, təhsildə bəşəri biliklər də prioritet olmalıdır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan edib.

Təhsil naziri görüşdə iştirak edən tələbələrlə tanış olaraq, onların təhsil aldıqları universitetlərdə əldə etdikləri təcrübələr və yiyələndikləri biliklər haqqında ətraflı məlumat alıb, tələbələrin problemləri ilə maraqlanıb.

* * *

Azərbaycanın təhsil sahəsində qısa zamanda əldə etdiyi nailiyyətlər qürurvericidir. Bu fikri Azərbaycanın təhsil naziri Mikayıl Cabbarov Londonda keçirilən Dünya Təhsil Forumunun "Müəllimlərin işə qəbulu, peşə fəaliyyətlərinin təkmilləşdirilməsi, təlim və tədris keyfiyyətinin yaxşılaşdırılması siyasəti" adlı sessiyasında çıxışı zamanı səsləndirib.

Nazir qeyd edib ki, 2015-ci il bütün ölkələr üçün təhsildə inkişaf hədəflərini müəyyənləşdirmək, tədris sistemində 2030-cu ilədək davamlı inkişafı təmin etmək baxımından model il olubdur. Təhsil sistemində daxili islahatların, ikitərəfli və çoxtərəfli mübadilələrin təmin edilməsi başlıca məqsədlərdəndir. Bu çərçivədə kurikulum və təkmilləşdirilmiş tədris metodologiyalarının mübadiləsini nümunə göstərmək olar.

M.Cabbarov vurğulayıb ki, bazar iqtisadiyyatı sistemində müəllimlərin rolunu dərk etmək vacib məsələlərdən biridir. Tədris sistemində ümumbəşəri dəyərlərin öyrənilməsi diqqət mərkəzində saxlanılmalıdır. Bunlara şəxsi keyfiyyətlərin inkişafı, öyrənmə məsuliyyətinin dərk edilməsi, vətəndaşlıq, mədəniyyətlərarası maarifləndirmə və s. daxildir.

Nazir Azərbaycanda təhsil sahəsində görülən işlərdən və aparılan islahatlardan da bəhs edərək, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi haqqında sərəncamını misal göstərib. Qeyd edilib ki, müəllim peşəsinin nüfuzunun artırılması sözügedən strategiyanın əsas hədəflərindəndir və qısa zaman ərzində əldə edilən nailiyyətlər qürurvericidir. Yüksək nəticə ilə məzun olan məktəblilər üçün hazırlanmış xüsusi təqaüd proqramı və digər layihələr təhsil sistemində Azərbaycan təcrübəsi ilə maraqlananlara əvəzedilməz nümunə ola bilər. İki il öncə Azərbaycan tarixində ilk dəfə olaraq müəllimlərin ixtisaslarının artırılması, nöqsanların müəyyən edilməsi üçün diaqnostik qiymətləndirmələrin aparılması təmin edilib. Bu qiymətləndirmə Təhsil Nazirliyində yeni islahatların aparılması ilə yanaşı, müəllimlərin yeni bilik və bacarıqlara yiyələnməsinə də böyük kömək göstərdi.

M.Cabbarov diqqətə çatdırıb ki, təhsil sistemi tədris və öyrənmənin ümumi keyfiyyəti üzərində cəmləşməli, istedadlı məzunların işə cəlb edilməsi prioritet məsələ olmalıdır. Bu sahədə Azərbaycan təcrübəsini bölüşən nazir bildirib ki, 2013-cü ildən Azərbaycan Təhsil Nazirliyi mərkəzləşdirilmiş imtahan sistemi ilə müəllimlərin işə qəbulu prosesinə başlayıb.

Çıxışının sonunda M.Cabbarov qeyd edib ki, mədəniyyətlərarası təlim, tolerantlıq və qarşılıqlı hörmət tədris sisteminin mərkəzində olmalıdır. İnformasiya texnologiyalarının sürətlə inkişaf etdiyi bir dövrdə, insanlar arasındakı kommunikasiyanın daha da genişlənməsi gələcək dünyamızın əsas xüsusiyyətlərindəndir. Bu, təhsil sistemində də özünü bariz şəkildə göstərəcəkdir. Milli dəyərlər, tarix və mədəniyyət təhsildə ən vacib elementlər olaraq qalmaqla yanaşı, qarşılıqlı hörmət çərçivəsində tədrisin beynəlxalq səviyyəyə yüksəldilməsinə, başqaları haqqında öyrənməyə də hər zaman əhəmiyyət verilməlidir.

***Orxan İSMAYILOV,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

*London*